*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin* **ELMİ ƏSƏRLƏRİ № 25, 2018**
**УЧЁНЫЕ ЗАПИСКИ** *Азербайджанского Государственного Университета Культуры и Искусств* **№ 25, 2018**
**SCIENTIFIC NEWS** *of Azerbaijan State University of Art and Culture* **№ 25, 2018**

**UOT 745/749**

***Vəfa Nağıyeva***
***Azərbaycan Dövlət Rəssamlıq Akademiyası***
***AZ1029, Bakı, Heydər Əliyev pr.58***
***Email:* vefa.nva26@gmail.com**

# ANADOLU VƏ AZƏRBAYCAN XALÇALARI XARİCİ RƏSSAMLARIN ƏSƏRLƏRİNDƏ

**Xülasə:** Tarixi mənbələrə əsasən qədim dövrə aid olan toxuculuq nümunələrimiz haqqında xarici rəssamların əsərlərindəndə məlumat əldə edə bilərik. Anadolu və Azərbaycanın maddi və mənəvi mədəniyyətləri ilə Avropa ölkələri arasında əlaqələrin daha da genişlənməsi bir çox Avropa rəssamlarının diqqətini Azərbaycan və Anadolu xalq ustalarının yaradıcılığına cəlb etmiş və onlar bu yaradıcıları yüksək qiymətləndirmişlər. İntibah dövrünün görkəmli rəssamları Azərbaycan və Anadolu xalçalarının təsvirini yaradaraq onları öz müasirlərinə və gələcək nəsillərə böyük və dəyərli incəsənət nümunəsi kimi təqdim etmişdilər. Azərbaycan və Anadolu xalçaları qədimdən bu günə kimi tacirlərin, kolleksiyonerlərin və rəssamların diqqət mərkəzində olub. Hazırki dövrdə də onları özlərinə cəlb edir və heyran qoyur.

**Açar sözlər:** Azərbaycan, Anadolu, xalça sənəti, rəsm əsərləri.

Qədim və zəngin ənənələrini özündə yaşadan xalça sənəti həm tədqiqat mənbəyi kimi, həm də irsi mədəniyyətin daşıyıcısı olaraq hər zaman olduqca maraqlı və əhəmiyyətli olmuşdur. Yaxın və Orta Şərqdə türkdilli xalqların hər biri bu sənəti özünəməxsus tərzdə qoruyub yaşatmış və inkişaf etdirmişdir (1, s. 3). Müxtəlif növ xovlu və xovsuz xalça məmulatlarının özünə xas olan quruluş xüsusiyyətləri və həmin quruluşlara uyğun müxtəlif ornamentlər tədqiqatçılar üçün araşdırma qaynağı olaraq qalır (2, s. 20).

Qədim toxuculuq mədəniyyəti haqqında ancaq tapıntılar nəticəsində məlumat toplaya bilirik. Lakin qədim dövrə aid olan bütün toxuculuq nümunələri günümüzə qədər gəlib çatmayıb. Xalçaçılıq sənəti haqqında həmçinin xarici rəssamların əsərlərindən də məlumat toplamaq mümkündür. Xüsusilədə Avropa və rus rəssamlarının əsərlərində Azərbaycan və Anadolu xalçalarına rast gəlirik. XIV-XV əsrlərdən başlayaraq Avropa və rus rəssamları öz əsərlərində Azərbaycan və Anadolu xalçalarının təsvirlərini yaratmağa başlamışdılar (3, s. 54).

Orta əsrlərdə Azərbaycanın başqa ölkələrdə o cümlədən Avropa ölkələri ilə ticarət münasibətlərinin genişlənməsi qarşılıqlı mədəni əlaqə üçün əlverişli şərait yaratmışdı. Məlumdur ki, XIII əsrin sonu və XIV əsrin əvvəllərində Genuya və

Venetsiya tacirlərinin Xəzər dənizində gəmiləri olmuş və onlar burada ticarət məntəqələri yaratmışdır. Marko Polonun verdiyi məlumata görə, XIII əsrdə Azərbaycanın şəhərlərində "Şərq və Qərb ölkələrinin bütün məmulatlarını tapmaq olardı" (4, s.31). Azərbaycanın maddi və mənəvi mədəniyyəti ilə Avropa ölkələri arasında əlaqələrin daha da genişlənməsi bir çox Avropa rəssamlarının diqqətini Azərbaycan xalq ustalarının yaradıcılığına cəlb etmiş və onlar bu yaradıcıları yüksək qiymətləndirmişlər (5, s.91). İntibah dövrünün rəssamları öz dövrləri ilə yanaşı XIII-XIV əsr Şərq xalça nümunələri ilə tanış olmuşlar. XIII-XV əsr Azərbaycan bəzəklərində fiqur və bitki naxışları ilə yanaşı, həndəsi naxışlarla yaxşı əlaqələndirilmiş "kufi" yazılardan da geniş istifadə edilmişdir. Həmin yazılar XIV əsrdən sonra isə nəsx yazısı naxışları ilə əvəz edilmişdir (4, s.32).



**Şəkil 1**. Yan van Eyk "Mehrab" əsəri (1437), Drezden Qalereyası, Azərbaycan xalçası Dövlət Muzeyi

İntibah dövrünün holland, fransız, italyan rəssamları öz freskalarında, tablolarında xalçaları sevərək və layiqincə qiymətləndirərək təsvir edirdilər. XIII-XIV əsrlərə aid Səlcuq xalçalarının üzərində olan heyvan motivlərinin təsviri XIV-XV əsrlərdə yaşamış italyan rəssamlarının yaratdığı freska və rəsm əsərlərində öz əksini tapmışdır. Cottonun, Nikolo di İuoiokorzonun, Piççio di Simonanın, Kola di Petruçillinin rəsm əsərlərindəki "tək-tək quş" motivləri, Amrocionun Siyenada yerləşən Palasso Publikadakı freskaları, Simone Martininin "vuruşan quşlar və ağac" motivi, Nikolo di Pyetro Cerininin "Apostol Matveyin çağırışı" freskası, Sasset və Taddeo Qaddi məktəbinə aid rəsm əsərlərindəki heyvan təsvirləri buna bariz misallardır ( 6, s.29).

XV əsrə aid olan Venesiya rəssamı Karlo Krivellonun "Müjdə", Niderland rəssamı Hans Memlinqin "Məryəm öz körpəsi ilə" əsərində Şirvan xalçası, Hans Holbeyinin "Müqəddəs Sebastiyan", İtaliya rəssamı Dominiko de Bortolonun "Findlinqin toyu", Hans Holbeyin "Səfirlər" əsərində Qazax-Gəncə məktəbinə aid xalçaya rast gəlirik (7, s.17).

Niderland realist incəsənətinin və intibah dövrü mədəniyyətinin meydana gəlməsi Yan Van Eykin yaradıcılığı ilə bağlıdır. Yan Van Eyk Burqundiya hersoqu Filippinin sarayında rəssam işləməklə yanaşı, hersoqun diplomatik tapşırıqlarını yerinə yetirirdi. Bu da Yan Van Eykin müxtəlif xalçaların incəsənəti ilə tanış olmağa imkan yaradırdı. Rəssamın "Mehrab" adlı rəsm əsərində kilsədə taxt üzərində Məryəm öz körpəsi ilə təsvir edilmişdir (şəkil 1) (4, s.32). "Mehrab" əsəri 1437-ci ilə aiddir. Əsər Drezden Qalereyasında saxlanılır (8). "Mehrab" əsərdə taxt döşəmə üzərinə salınmış xalça üstünə qoyulmuşdur. Həmin xalçanın kiçik həndəsi naxışlı Şirvan xalçası olduğu müəyyən edilmişdir. Xalça cizgilərinin sərbəst planda verilməsi intibah dövrü rəssamlarının başqa əsərlərində də müşahidə edilir. Əsərdə təsvir edilən xalça kəsilmişdir və aşağı hissədə haşiyəsi yoxdur. Ehtimal ki,

məlumolduğu kimi Azərbaycanda böyük ölçülü xalçalar yüksək mədəniyyət nümunəsi kimi iki və ya üç yerə bölünür və hissə-hissə satılırdı. Ola bilsin ki, rəssam xalçanı belə kəsik görmüş və onu haşiyəsiz təsvir etmişdir (4, s.32).

Hans Memlinqin " Çiçəkli dolça natrümortu" tablosunda dolçanın altında təsvir olunan xalça Qarabağ xalçaçılıq məktəbinə aid olan Muğan xalçasını xatırladır (8).

Niderland rəssamı Yan van Eykin "Canon van der Paele ilə Madonna" əsəri 1434-1436-cı ilə aiddir . Taxta üzərində yağlı boya texnikası ilə işlənmişdir. Hal-hazırda Belçikanının Brügge şəhərində Groenninge Muzeyində sərgilənir. Əsərdə Madonnanın ayağı altında təsvir olunmuş xalça Quba xalçaçılıq məktəbinə aid olan Zeyvə xalçasıdır (8).

Karlo Krivellonun "Müjdə" rəsm əsəri 1486-ci ildə taxta üzərində yağlı boya texnikası ilə işlənmişdir. Əsər Londonda Milli Galeryada saxlanılır (9). Əsərdə iki xalça təsviri var. Biri çox kiçik ölçüdə arxa fonda, digəri isə öndə sol hissədə təsvir olunub. Hər iki təsvir olunmuş xalçaya diqqətlə baxsaq üzərində iri ölçülü həndəsi ornamentlərdən və parlaq rənglərdən istifadə olunduğunu görərik. Xalçaların üzərində qırmızı, sarı, yaşıl, mavi, qəhvəyi və ağ rənglərdən istifadə olunub. Karlo Krivellonun yaratdığı bu rəsmdə təsvir olunan xalçalar Gəncə-Qazax növlü xalçalara aiddir (3, s.54).

Azərbaycan xalçalarına Siyena şəhərində yerləşən Santa Mariya kilsəsinin freskalarında, rəssam Domeniko de Bartolonun "Yetimlərin böyüdülməsi və evləndirilməsi" freskasında, Domeniko Mononenin "Müqəddəs Fomanın doğulması" rəsmində, Fransada "Taybuynuz at və qadın" (XV əsr) qobelenində də rast gəlinir (6, s.32).

XIV əsrdən başlayaraq İtalya rəssamları öz əsərlərində Türk xalçalarını təsvir edirdilər. Qədim dövrə aid olan stilizə olunmuş quş təsvirlərinə xüsusilə İtalyanının Siyena və Florensiya məktəblərinin rəsm əsərlərində istifadə olunurdu. XIV əsr tablolarında cüt və ya tək stilizə olunmuş heraldik və ya yandan qartal təsvirli xalçalara rast gəlinir. Bu cür təsvirlər yalnız XIV əsr xalçalarına aid idi. Heyvan fiqurlu xalçalar Avropalı rəssamların tablolarında Məryəmin taxtı altında və ya yerə sərilmiş təsvir olunurdu. Əsərlərdə təsvir olunan xalçaların hamısı əsl xalça nümunələri deyildi. Onların bəzilərinin üzərində dəyişiklilər edir və ya xəyali təsvirlər yaradırdılar (10, s.37).

XIV əsr rəssamlarından Filppi Memmlinqin "Məryəm və körpə İsa", Niccolo di Buonacorsanın "Məryəmin evlənməsi", Ambrogio Lorenzettinin "Məryəm və körpə İsa müqəddəslərlə" əsərlərində Türk xalçalarına rast gəlinir.

Filippi Memmlinqin "Məryəm və körpə İsa" əsəri 1350-ci ildə çəkilmişdir (Şəkil 2). Əsərdə təsvir olunan xalçanın kompozisiyasını kənarları kəsik dördbucaqlı hissələrində yerləşdirilmiş krem rəngli



Şəkil 2. Filippi Memmlinqin "Məryəm və körpə İsa" Berlin Drezden Qalereyası, Azərbaycan xalçası, Anadolu xalçası

bölmələr qırmızı yerlik üzərində ayrı-ayrı sıralanıb. Ara hissədə qalan yerlik mavi medalyonlar bəzəklərlə bölmələri bir-birindən ayırır. Romb formasında olan kənar boşluqları isə qolları spiral qıvrımlı mavi damalı xaçlarla bəzədilib. Krem rəngli səkkizbucaqlılar üzərində ağ və mavi xallı tünd qırmızı iki quş ağacın hər iki tərəfində bir-birlərinə arxası dönük və başları geri çevrilmiş halda yerləşdirilmişdir (10, s. 38). "Məryəm və körpə İsa" əsəri Berlin Dövlət Muzeyində sərgilənir. Əsərdə təsvir olunan xalça üzərindəki quş fiqurlarına Anadolu xalçalarında tez-tez rast gəlinir. Bu dövr xalçaları arasında ya həyat ağacının iki tərəfində stilizə olunmuş heyvan fiqurları, ya da əjdaha və simurq quşunun və başqa heyvanların mübarizəsini əks etdirən kompozisiyalar üstünlük təşkil edirdi. Bunlardan əlavə orta kompozisiya hissəsində "heyvan içində heyvan" fiqurlarınada rast gəlinir. Həmin fiqurlar Niccolo di Buonacorsanın "Məryəmin evlənməsi" əsərindəki xalça üzərində təsvir olunub (11, s. 208). Məryəmin evlənməsi səhnəsində yerə sərilmiş xalçada qırmızı və sarı rəng var. Qırmızı yerlik üzərində sarı rəngdə dördbucaqlara bölünmüş hissənin içərisində başı arxaya dönük vəziyyətdə stilizə olunmuş quş (xoruz) fiquru yerləşdirilmişdir. Quşların rəngi alternativ olaraq bir dəfə qırmızı yerlik üzərində sarı, bir dəfə də sarı üzərində qırmızı olaraq təkrarlanır (10, s. 38). Əsər hal-hazırda London Milli Galeryasında saxlanılır.

Ambrogio Lorenzettinin Syenada olan "Məryəm və körpə İsa müqəddəslərlə" tablosunda yerə salınan xalının üzərində sekkizbucaqlı içərisində başı arxaya, quyruğu isə önə tərəf uzanmış hərəkət halında olan bir qaplan fiquru təsvir edilmişdir (10, s.39). XV-XVI əsrlərə aid olan Türk toxuculuq sənətindən yox deyiləcək qədər az əsər mövcuddur. Bu dövrə aid olan Türk xalça sənəti haqqında həmin dövrün məşhur rəssamlarının tablolarında görüb məlumat əldə edə bilərik. Çünki həmin dövrlərdə bir çox xarici rəssamlar tablolarının kompozisiyasında Türk xalçalarının təsvirinə yer vermişdilər (11, s. 206). Türk xalçaları Modenalı rəssam Bartolomeo deyli Errinin "Müqəddəs Vinsent Ferrerinin həyatından" (XV əsr), Domenico Girlandaionun "Taxta Madonna və körpə müqəddəslər ilə" (XV əsr), Lorenzo Lottonun "Müqəddəs Antoninin sədəqəsi" (XVI əsr) tablolarında da təsvir olunub.

XV əsrin ikinci yarısında İtalyan, Flaman, Alman rəssamlarının bəzilərinin tablolarında Səlcuqlu və Osmanlı xalçalarının motivlərini xatırladan xalçalar görmək olar. Hans Holbeyin bu xalçaları tablolarında tez-tez istifadə etdiyi üçün həmin xalçaları Holbein xalçası adı ilə tanınmağa başlanılır. Holbeyin xalçası, Memlinq xalçası, Bellini xalçası kimi bütün bu adlar Avropalı tədqiqatçılar tərəfindən verilmiş, daha sonra isə Türk elmi incəsənət adamları tərəfindəndə davam etdirilmişdir (11, s.206). XV əsrdə əjdaha və simurq quşunun mübarizəsi olan kompozisiyalı xalça təsvirləri çox məşhur idi. Bu cür xalça nümunələrini Florensiya rəsmlərində daha çox görmək olurdu. Ən yaxşı nümunələrindən biri Modenalı rəssam Bartolomeo degli Errinin Viyana Tarixi İncəsənət Muzeyində sərgilənən "Müqəddəs Vinsent Ferrerinin həyatından" mövzulu tablosunda pəncərə kənarından sallanan kiçik xalça təsviridir (10, s. 41).

Lorenzo Lottonun 1542-ci ildə çəkdiyi "Müqəddəs Antoninin sədəqəsi" tablosunda iki Şərq xalçası təsvir olunub. Tablodakı xalçanın biri "Lotto xalçası", digəri isə "para Məmlük" xalçasıdır. Adətən xalçalar qırmızı yerlik üzərində sarı rəngli arabesk ilə xarakterizə olunur . Domenico Ghirlandaionun "Taxta Madonna və körpə müqəddəslər ilə" tablosu 1486-cı ilə aiddir. Tabloda olan xalçanın ümumi dizaynı Holbeyin xalçaları ilə əlaqələndirilir. Xalçanın kənar hissələri üçbucaq, orta hissəsi isə qıvrım naxışlarla əmələ gələn kvadrat içərisində səkkizbucaq formasından ibarətdir. XVI əsrdə bu cür medalyonlu xalça nümunələri Çanaqqalanın Qərbi Anadolu bölgəsində toxunmuşdur (12).

XVI əsrdə yaşamış Hans Holbeyin "Səfirlər" adlı rəsm əsərində də Azərbaycan xalçası təsvir olunub. Əsərdə xalçanın orta kompozisiya hissəsi böyük ölçüdə kvadrat və düzbucaqlılara bölünmüşdür. Əksəriyyətində kvadrat və ya düzbucaqlının içərisinə olduqca böyük səkkizbucaqlılar yerləşdirilmişdir. Əsər London Milli Qaleriyasında saxlanılır.

Həmçinin Oskar Freyvit Lyutsovun "Uzaqdan gələn sevimli qonaq" (XIX əsr) əsərində Qazax xalçası, İlya Yefimoviç Repinin "İvan Qrozni və onun oğlu İvan" (XX əsr), Kapiton Alekseyeviç Zelentsovun "Otaqlarda" tablosundakı Qarabağ məktəbinə məxsus "Bağçada güllər" xalçası və başqa əsərlərdə Azərbaycan xalçaları özlərinə layiqli yer tutmuşlar (2, s.21).

Anadolu xalçalarına aid olan nümunələrdən biri də XVII əsrdə yaşamış Villiam Larkinin "Xanım Cary" tablosunda təsvir olunub. Burada təsvir olunan xalça Minq xalçasıdır. Bu əsərdə olan xalçanın kompozisiyası XIV əsrdən sonra çox istifadə olunmayan uzun altıbucaqlı içində simurq quşu böyük ölçüdə, başı qarmaq formasında, quyruğu kəsik, əjdaha fiquru isə kiçik ölçüdə sadələşdirilmiş heyvan şəklində təsvir olunub (10, s.41). Holland rəssamı Yan Vermeerin əsərlərində klassik dövr xalçalara daxil olan ulduzlu, medalyonlu Uşak xalçalarının təsvirlərini yaradırdı. Rəssamın xalça təsviri yaratdığı əsərlərindən biri də "Musiqi dərsi" tablosudur (11, s.209). Türk xalçalarının təsvirinə avstralyalı rəssam Rudolh Ernst-Weysenin "Məsciddə dua edərkən" (XIX əsr), italyan rəssamı Giulio Rosatinin "Yeni gələnlərin təşrifi" (XIX əsr), fransız rəssamı Benjamin-Constantın "Bazar" (XIX əsr) əsəri və başqa rəssamlarının əsərlərində rast gəlinir (11, s.216).

Beləliklə, tarixi mənbələrə əsasən qədim dövrə aid olan toxuculuq nümunələrimiz haqqında xarici rəssamların əsərlərindəndə məlumat əldə edə bilərik. Anadolu və Azərbaycanın maddi və mənəvi mədəniyyətləri ilə Avropa ölkələri arasında əlaqələrin daha da genişlənməsi bir çox Avropa rəssamlarının diqqətini Azərbaycan və Anadolu xalq ustalarının yaradıcılığına cəlb etmiş və onlar bu yaradıcıları yüksək qiymətləndirmişlər. İntibah dövrünün görkəmli rəssamları Azərbaycan və Anadolu xalçalarının təsvirini yaradaraq onları öz müasirlərinə və gələcək nəsillərə böyük və dəyərli incəsənət nümunəsi kimi təqdim etmişdilər. Qeyd etdiyim məlumatlardan belə nəticə çıxara biləri ki, Azərbaycan və Anadolu xalçaları qədimdən bu günə kimi tacirlərin, kolleksiyonerlərin və rəssamların diqqət mərkəzində olub. Hazır ki dövrdə də onları özlərinə cəlb edir və heyran qoyur.

## Ədəbiyyat:


1. Hüseynov Məhəmmədhüseyn . Xalça sənətində haşiyə elementləri və onların quruluşu. Bakı:Təhsil, 2012
2. Muradov Vidadi. Azərbaycan xalçaları. Bakı: 2008
3. Əfəndiyev Rasim. Azərbaycan incəsənəti.Bakı: Şərq-Qərb, 2007
4. Quliyev M.. XV əsr Avropa rəssamlarının əsərlərində Azərbaycan xalçalarının təsviri [Mətn]. Bakı: Elm və Həyat, 1968, № 8
5. Quliyev M.. XV əsr iki Avropa rəssamının əsərlərində Azərbaycan xalçalarının təsviri[Mətn]; [xülasə]// Azərbaycan SSR EA Məruzələri-1969, C.25, №7
6. Tağıyeva Röya. Azərbaycan Xalçası Ensiklopediyası. I cild. Bakı:Azərnəşr, 2015
7. Lətif Kərimov. Azərbaycan xalçası (I cild). Bakı-Leninqrad: 1961
8. http://narimanov.cls.az/more/text/51347
9. https://www.wga.hu/html_m/c/crivelli/carlo/annunci.html
10. Oktay Aslanapa, Türk Halı Sanatının Bin Yılı, İstanbul- Eren Yayıncılık ve Kitabçılık Ltd.Şti. 1987
11. http://www.ayk.gov.tr/wp-content/uploads/2015/01/AYTAC3-Ahmet-TÜRK-MEDENİYYETİNDE-DOKUMA-KÜLTÜRÜ-VE-YABANCI-RESİM-SANATI-ÜZERİNDEKİ-TARİHSEL-YERİ.pdf
12. https://en.wikipedia.org/wiki/Oriental_carpets_in_Renaissance_painting
13. Azərbaycan xalçası: biblioqrafiya / tərtibçi-müəllif K.Tahirov; red. G.Səfərəliyeva; M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası- Bakı, 2012


**Вафа Нагиева**

**Ковры Анадолу и Азербайджана в произведениях западных художников**

**Резюме**

Данная статья посвящена изучению ковров Анадолу и Азербайджана, которые били изображены в произведениях западных художников. Автор отмечает, что ковры Анадолу и Азербайджана испокон веков были в центре внимания купцов, коллекционеров и художников.

**Ключевые слова:** Азербайджан, Анатолия, ковровое искусство, художественные работы

**Wafa Nagiyeva**

## The carpets of Anatolia and Azerbaijan in the works of Western artists

## Summary

Thus according to the historical sources we can get information about weaving specimens belonging to the ancient period in the works of foreign artists. Anadolu and Azerbaijan with their material and spiritual culture can attract the attention of some of the European artists thanks to the expansion of the relations among the European countries. And these ties help them to appreciate highly the works of Azerbaijan and Anadolu's folk masters. Prominent artists of the Renaissance created the image of Azerbaijan and Anadolu carpets and presented them to the future generetion as great and valuable examples of Art.

**Keywords:** Azerbaijan, Anatolia, carpet art, art works .

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.05. 2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 18.05. 2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 12.06. 2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Həsənzadə**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**